# SƏS

Küləkli bir gündü, kirəmitli damlarda, ağaclarda qarğalar qarıldaşır və çığırışırdılar. Qarğalar küləkli günləri çox sevirlər. Onlar, sanki insanların onların səsini sevmədiklərini bilir və küləyin hər şeyi səsləndirdiyi, gurultular və uğultular qopardığı belə günlərdə öz sözlərini daha rahat və daha sərbəst çığıra bilirlər. Küçədə az adam görünürdü. Başım aşağıda, düşünə-düşünə gedərkən məndən az aralı, daş döşəmə üstündə bir şey gördüm. Ona çatıb yanında durdum. Bir ovuca sığa biləcək, xəfifcə tərpəşən, bilinməz bir şeydi. Onu diqqətlə süzərkən uzaq bir sezgi, onun nə ola bilməsini mənə anladırdı. O, mənə deyirdi ki, buraya, bu daş döşəmənin üstünə düşüb qalmış və kimsənin fərqinə varmadığı, bir canlı kimi bəlirsizcə qımıldanan bu qəribə şey ancaq bir səs ola bilər. Onu yerdən götürüb ovcumda saxladım. Dayanmaqda olan bir ürək kimi, ya son anlarını yaşayan kəsilmiş bir quş başı kimi zəifcə çırpınırdı. Ona diqqət və heyrətlə baxarkən, onun bir səs olmasında artıq şübhəm qalmamışdı, çünki, gördüyüm səslərlə onun arasında çox yaxın bir oxşarlıq vardı. Mən ömrümdə çox səs görmüşdüm: Qapazlanıb qısılmış səs, yaralanmış səs, qanamış səs, əzilmiş səs, partlamış səs, boğulmuş səs, asılmış səs, qurşunlanmış səs; bir sözlə, bir çox səslər ki, buna çox bənzəsələr də, ancaq bunun kimi atılmamışdılar. Onu, hələ də ovcumda tutmuşdum. Düşünürdüm: “görəsən bu, kimin səsi ola bilər, nədən bu səsi yiyəsi atıb getmişdi, niyə səssiz yaşamaq istəmişdi, ona nə etmişdilər ki, o, bir dəfəlik səsini özündən qoparıb küçəyə tullamışdı?!“

Mən beləcə düşünərkən onu süzürdüm və hiss edirdim ki, daha öz sonuna yaxınlaşmış və indicə öləcəkdir. Bu ümidlə ki, küçədən gəlib keçənlər ayaqlayıb əzməsinlər və bəlkə bir az da yaşaya bilsin, aparıb onu bir qapı önündə ucalan bir çinarın enli bir budağına qoydum. Bir az geri çəkilib onu süzməyə başladım. Bu an, məni çox-dan güdürmüş kimi bir qarğa damdan o budağa şığıyıb onu dimdiyinə aldı və budaqdan-budağa hoppana-hoppana ağacın uca bir budağına çatıb orda qaldı. Sonra da başını qaldırıb boğazı şişə-şişə onu uddu. Bu zaman, var gücüylə bağırmağa başladı. Qarğa elə bağırırdı ki, yoldan gəlib keçənlər onun fərqinə vardılar. Durub ikibir-üçbir ona baxaraq danışmağa başladılar. Mən də tək dayanıb həm qarğanın kəsməyən dəhşətli bağırtısını və həm də onları dinləyirdim:

- *Nə deyir bu qarğa görəsən?!*
- *Bəlkə bir ağrısı var bu quşun?!*
- *Bəlkə balalarını itirmişdir, onların dərdini çəkir?!*

Ortayaşlı bir qadınla danışan gənc bir qız da:

- *Keşkə, qarğaların dilini biləydik, belə olsaydı bəlkə ən azı ona bir təsəlli vermək olardı!*

Onu dinləyən ortayaşlı qadın da başını tərpətməklə onun sözlərini təsdiq edir və o biriləri kimi başını qaldırıb ağac-da susmaq istəməyən və bağıran qarğaya baxırdı.

Berlin, 2008